*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 351-353* *ISSN: 2663-4406*

Qürbət Mirzəzadə*

# TƏNQİDÇİ EHTİRASI İLƏ MÜASİRLİK MEYAR OLANDA
***(Vaqif Yusiflinin anadan olmasının 70 illiyinə)***

Ədəbi tənqid elmi-nəzəri fikrin elə bir sahəsidir ki, burada bədii fakt və hadisəni, onu yaradan şəxsiyyətin düşüncə və təfəkkür tərzini zamanın tələb və gerçəklikləri ilə əlaqə və bağlılıqda, tarixiliklə müasirliyin üzvi vəhdətində təhlilə yönəltmək, fəlsəfi-estetik ümumiləşdirmələrlə dəyərləndirmək mühüm şərtdir. Şübhəsiz ki, bu üç amil arasında üst-üstə düşən, bir-birini tamamlayan məqamları taparaq üzə çıxarmaq, nəzəri təhlili belə bir baxış bucağından aparmaq tənqidçidən zəngin dünyagörüş, istedad və məharət tələb edir.

Tanınmış tənqidçi Vaqif Yusiflinin nə az, nə çox qırx ildən artıq bir dövrü əhatə edən məhsuldar fəaliyyətində bu səciyyəvi yaradıcı keyfiyyətləri aydın şəkildə görmək mümkündür. Onun bir tənqidçi kimi formalaşmasında klassik tənqid ənənəsindən irəli gələn məziyyətlər mühüm rol oynamış, uzun illər respublikanın aparıcı mətbu orqanlarından biri olan "Azərbaycan" jurnalında "Tənqid və ədəbiyyatşünaslıq" adlı ciddi bir şöbəyə rəhbərlik etmək, ən əsası bir əməkdaş kimi şöbəyə daxil olan çoxsaylı yazıları nəzərdən keçirərək saf-çürük etmək, nəşrə hazırlamaq, müəllif olaraq məqalə və resenziyalar yazmaq, müzakirə və müsahibələr aparmaq əsl tənqidçiyə xas olan xüsusiyyətləri göz önündə canlandırır. Biz Vaqif Yusiflinin özünün də ən çox sevdiyi, fikir və mülahizələrinə dönə-dönə istinad etdiyi böyük rus tənqidçisi və mütəfəkkiri Vissarion Qriqoriyeviç Belinskinin tənqidçilik fəaliyyətinin mətbuatla bağlı məqamlarını burada xatırlatmaq istəyirik. Doğrudan da, məşhur rus tənqidçisinin yetişməsində o dövrün aparıcı ədəbi mətbu orqanları mühüm rol oynamış, onun geniş dairələrdə tanınmasında və şöhrət qazanmasında dövri nəşrlərin müstəsna əhəmiyyətini heç cür danmaq olmaz. Bir tənqidçi kimi Vaqif Yusiflini biz V.Q.Belinski ilə müqayisə etmək fikrindən çox uzaqıq. Ancaq burada müəyyən oxşarlıqların və paralellərin olduğu da göz qabağındadır.

Tənqidçinin ümumi fəaliyyətindəki bir məqamın da üzərindən sükutla keçmək olmaz. İndi respublikanın adlı-sanlı elm xadimləri kimi tanınan müəlliflərin böyük əksəriyyətinin məqalələrinin, müxtəlif xarakterli yazılarının vaxtilə bu nüfuzlu nəşrdə işıq üzü görməsinə böyük ürək genişliyi və xeyirxahlıqla yaradılan şərait, təmənnasız yardım Vaqif Yusiflinin nəcib və humanist təbiətindən xəbər verir.

Vaqif Yusifli keçən əsrin 70-ci illərində elmi-nəzəri fikrə axınla gələn, xüsusilə linqvistik təhlilə daha çox meyilli olan dilçi-tənqidçilər də daxil olmaqla yaradıcılığa başlayan, dövri mətbuat səhifələrində ilk yazılarını dərc etdirən, az keçmədən ayrıca bir onilliyin – 80-90-cı illərin sayılıb-seçilən, fəal və cəsarətli yaradıcılıq axtarışları ilə fərqlənən bir tənqidçisi kimi yetişir. Tənqid kimi çətin, çətin olduğu qədər də məsuliyyətli, obrazlı şəkildə desək, rəqabətə meyilli bir sahədə duruş gətirmək, tənqidçidən ədəbi prosesin inkişaf meyillərini həssaslıqla duymaq, onu obyektiv meyar və prinsiplər əsasında təhlilə yönəltmək qabiliyyəti tələb edir. Haqqında bəhs edilən onilliklər ədəbi tənqidin tarixində xüsusi mərhələ olmaqla bərabər, həm də əsrin sonlarına yaxın cəmiyyətdə baş verən ciddi təbəddülatların, böhran və kataklizmlərin baş verdiyi bir ərəfədir. Belə bir olay ədəbi prosesə də təsirsiz ötüşmür, bu mərhələdə tənqidi fikir ədəbi proseslə bərabər, ziddiyyətli anlar və dilemmalar qarşısında qalır, bədii düşüncənin hərəkət dinamikasının barometri hesab olunan ədəbi

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru.

tənqidin səngəri bir-bir boşalır, sıralar seyrəlir, elmi-nəzəri fikrin bu sahəsini inkar edən mülahizələr elə "...tənqidin öz rotasından" israrla eşidilməyə başlayır. Təfərrüata varmadan demək olar ki, Vaqif Yusifli ədəbi tənqidin varlığını, onun mövcud olmaq imkanlarını öz yaradıcılıq axtarışları, analitik təfəkkürlə qələmə alınan yazıları ilə o dövrdə (elə indi də!) təsdiq edən azsaylı tənqidçilərdən biri idi və tərəddüd etmədən demək olar ki, belə bir yaradıcılıq ehtirası indi də onun müntəzəm və fasilə bilməyən fəaliyyətində müşahidə olunur. Onun elmi-nəzəri irsində müasir ədəbi prosesin ən müxtəlif yaradıcılıq problemləri təhlil və araşdırma predmeti seçilir, bədii düşüncənin ənənə və varislik prinsipləri üzərində qərarlaşan yaradıcılıq təcrübəsi və bu mərhələlərin aparıcı nümayəndələrinin ədəbi irsi özünün obyektiv dəyər və qiymətini tapır.

Tənqidçilik Vaqif Yusiflinin elmi-nəzəri fəaliyyətinin əsas və aparıcı istiqamətlərindən biridir. O, "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda müdafiə etdiyi sırf nəzəri səciyyə daşıyan namizədlik dissertasiyasında da özünün tənqidçilik missiyasına sadiq qalır. Çağdaş bədii nəsrin yeni yaranan nümunələrinin mövzu, ideya-sənətkarlıq xüsusiyyətlərini təhlilə cəlb edən məqalə və resenziyalarla yanaşı, müəllifin "Roman haqqında mülahizələr", "Azərbaycan romanı-dünən, bu gün", "Romanlar, qəhrəmanlar" və "Böyük kitab" kimi icmal xarakterli yazılarında epik növün janr, üslub təkamülü konkret bədii fakt və nümunələr əsasında araşdırılır, nəsrin inkişafında nəzərə çarpan yeni meyillər və yaradıcılıq məziyyətləri barədə əyani təsəvvür yaradılır. Sonuncu silsilə məqalələrdə təxminən yarım əsr müddətində nəsrin nail olduğu əsas yaradıcılıq məziyyətləri, düçar olduğu uğursuzluqlar zəngin materiallara istinadən müəyyənləşdirilir. Nəsrlə yanaşı, Vaqif Yusifli həm də zəngin yaradıcılıq ənənələrinə malik olan milli klassik poeziyanın, o cümlədən iyirminci yüzilliyin poetik təcrübəsinin və müstəqillik illərinin – müəyyən mənada ənənədən tamamilə fərqlənən müasir şeirin (modernist şeir təmayülünün təmsilçiləri də daxil olmaqla) nüfuzlu şərhçilərindən biri kimi tanınır. Əgər onun poeziyaya həsr olunan məqalələrində və müxtəlif vaxtlarda nəşr olunan kitablarında yaradıcılığından bəhs edilən şairlərin sadəcə olaraq adlarını sadalamalı olsaq, böyük bir siyahı alınar. Poeziyanı belə fasiləsiz və müntəzəm təhlil etmək daha sonralar onun doktorluq dissertasiyası kimi müdafiə olunan "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq" adlı sanballı tədqiqatının yaranmasına zəngin material verir, əlverişli zəmin hazırlayır. Doğrudur, istər keçən əsrin 20-30-cu illərini, istərsə də 20-70-ci illərini eyni problem və nəzəri-estetik kateqoriya əsasında araşdıran monoqrafik tədqiqatların elmi-nəzəri dövriyyədə olduğu bir halda belə, onun bu cəhdi çoxlarına qəribə və gözlənilməz görünə bilər. Ancaq burada da müəllifin ənənəyə sədaqəti ilə yanaşı, ən azı otuz ilin poetik təcrübəsini, keçmiş olduğu inkişaf yolunu izləmək, dövrün poetik düşüncəyə yansıtdığı keyfiyyət dəyişmələrini təhlil edərək ümumiləşdirmək əsas məqsəd və qayəyə çevrilir. Burada zamanın poeziyanın mövzu-məndəricəsinə, forma-məzmun və sturukturuna təsiri çoxsaylı imzalar, yetərli ədəbi nümunələr, ümumiləşmələr və şərhlər hesabına gerçəkləşir ki, bu da tədqiqatçıdan poeziyanın axtarış meyillərindəki səciyyəvi nüansları tapmaq, onu nəzəri təhlillə üzvi vəhdətdə dəyərləndirmək səriştəsi tələb edir. Vaqif Yusiflinin haqqında söhbət açılan tədqiqatında belə bir yaradıcı təfəkkürün əlamət və təzahürünü yaxından izləmək olur. Beləliklə, nəsr və poeziyaya dair tədqiqlər Vaqif Yusiflinin əsas təhlil və münasibət hədəfi seçilən tənqidçilik fəaliyyətinin daimi, dəyişməz mövzu və problemləri sırasında mühüm yerlərdən birini tutur. Bu sahələr hələ onun bir tənqidçi-ədəbiyyatşünas kimi toxunduğu sahələrin miqyas və hüdudlarını da bütünlüklə əks etdirmir. Teatr, aktyor sənəti, aşıq yaradıcılığı, onun aparıcı nümayəndələri, muğam ifaçıları, əyalət və bölgələrdə yaranan ədəbi-bədii nümunələr haqqında silsilə məqalə və kitablar Vaqif Yusiflinin maraq dairəsinin və yaradıcılıq erudisiyasının geniş vüsəti barədə kifayət qədər əyani təsəvvür yaradır. Tənqidçi iki mindən artıq məqalənin, monoqrafiyalardan və toplulardan ibarət iyirmi beş kitabın müəllifidir. Əlbəttə, say və kəmiyyət əsas göstərici hesab olunmasa da, bu rəqəmlərlə ifadə olunan faktlar tənqidçinin yorulmaq bilmədən yazıb-yaratmaq eşqini və yaradıcılıq əzmkarlığını, zənnimizcə, kifayət qədər nümayiş etdirən qeyri-adi, çoxlarını heyrətləndirə biləcək bir statistikadır.

Ədəbi proses tənqidçi kimi Vaqif Yusiflinin əsas təhlil və ümumiləşdirmə obyekti seçdiyi sahələrdən biridir. Onun ayrı-ayrı içmallarında çağdaş gedişatın ümumi mənzərəsi, ayrı-ayrı ədəbi növ və janrların inkişaf dinamikası, yaradıcılıq axtarışlarının ən xarakterik məqamları barədə əyani təsəvvür yaradılır. Heç təsadüfi deyil ki, uzun fasilədən sonra Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Ədəbi tənqid şöbəsi yaradılarkən həm şöbəyə, həm də nəşri və strukturu tamamilə yeniləşən, hər il mütəzəm şəkildə ədəbi-elmi ictimaiyyətə təqdim olunan Ədəbi proses məcmuələrinin təşkili işinə rəhbərlik Vaqif Yusifliyə həvalə olunmuşdur. Az sonra uzun illər ərzində qazanılan yaradıcılıq təcrübəsi burada öz müsbət nəticəsini göstərir, ədəbi proses bütün mənzərəsi – janr və üslub təmayülləri ilə təqdim olunur. Açıq etiraf etmək lazımdır ki, bu nəşrin icraçılarından biri olmaqdan daha çox müəlliflər heyətinin seçimindən tutmuş, yerinə yetirilən elmi-təşkilati işlərin koordinasiya edilməsinə qədər məsul-həmmüəllif kimi fəal iştirakı Vaqif Yusiflinin illərlə qazandığı peşəkarlığın sayəsində əldə olunan nailiyyətlər kimi qiymətləndirilə bilər. O, Azərbaycan televiziyasında ekrana çıxan "Məclisi-üns" kimi klassik ədəbi irsə həsr olunan bir proqram və verilişin daimi iştirakçılarından biridir. Klassik ədəbiyyatla, onun sənət möcüzələri ilə belə sıx təmas və ünsiyyət işıq üzü görən "Azərbaycan qəzəli" kimi həm nəzəri şərh və tədqiq səciyyəli, həm də müntəxabat-antologiya xarakterli bir kitabın araya-ərsəyə gətirilməsinə əlverişli zəmin yaratmasını isbat etməyə elə bir lüzum yoxdur. Ancaq burada rübabi şeirin böyük ustadı Məhəmməd Füzulinin yaradıcılıq irsinə dərin sevgi və ehtiramdan irəli gələn bir sehrin də izinə düşmək olur. Vaqif Yusifli fədakar tənqidçidir. Son illər səhhətində yaranan ciddi problemlərə, məruz qaldığı cərrahi əməliyyatlara baxmayaraq, onun ədəbiyyat və sənət sevgisinin əvvəlki səviyyə və coşqu ilə davam etdirməsi çoxlarına təəccüblü görünə bilər. Təsəvvür edin, həyatı ciddi sınaqlara çəkilən bir vaxtda dörd günlük verilən möhlətdən yararlanaraq o, növbəti məqalələrdən ibarət kitabının elektron variantını dar bir macalda nəşrə hazırlamağı özünə borc bilir. Belə bir fakt onun ürəkdən bağlandığı yaradıcılıq sahəsinə dəruni sevginin, belə bir aurada yaşamaq və nəfəs almaq cəhdinin ibrətamiz və əməli nümunəsidir. Yazmaq, yaratmaq həm də yaşamağın felən bir təzahürüdür. Vaqif Yusifli bu üç hərəkət və var olmaq səlahiyyətinə sahib çıxmağa mənəvi haqqı olanlar sırasındadır. Bu haqqı o yorulmaz yaradıcılıq fəaliyyəti ilə qazanıb.